# AZƏRBAYCAN RESPUBLİKASININ
# NAZİRLƏR KABİNETİ

## Q Ə R A R

**“Klinik (tibbi) psixoloqlara verilən ixtisas attestatının forması və onun verilməsi, qüvvədəolma müddətinin dayandırılması və ya ləğv edilməsi Qaydası”nın təsdiq edilməsi haqqında**

“Psixoloji yardım haqqında” Azərbaycan Respublikasının 2018-ci il 7 dekabr tarixli 1385-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 21 yanvar tarixli 482 nömrəli Fərmanının 1.1.6-cı yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. “Klinik (tibbi) psixoloqlara verilən ixtisas attestatının forması və onun verilməsi, qüvvədəolma müddətinin dayandırılması və ya ləğv edilməsi Qaydası” təsdiq edilsin (əlavə olunur).

2. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 772 nömrəli Fərmanı ilə təsdiq edilmiş “İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnamə”nin 2.6-1-ci bəndinə uyğun edilə bilər.

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş Naziri**

Bakı şəhəri, 16 oktyabr 2020-ci il

№ 400

Azərbaycan Respublikası Nazirlər
Kabinetinin 2020-ci il 16 oktyabr
tarixli 400 nömrəli Qərarı ilə
**təsdiq edilmişdir.**

# Klinik (tibbi) psixoloqlara verilən ixtisas attestatının forması və onun verilməsi, qüvvədəolma müddətinin dayandırılması və ya ləğv edilməsi

# QAYDASI

## 1. Ümumi müddəa

1.1. Bu Qayda "Psixoloji yardım haqqında" Azərbaycan Respublikası Qanununun (bundan sonra – Qanun) 18.3-cü maddəsinə uyğun olaraq hazırlanmışdır və səhiyyə müəssisəsində psixoloji yardım göstərmək üçün klinik (tibbi) psixoloqlara (bundan sonra – psixoloq) Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi (bundan sonra – Nazirlik) tərəfindən verilən ixtisas attestatının formasını və onun verilməsi, qüvvədəolma müddətinin dayandırılması və ya ləğv edilməsi qaydasını müəyyən edir.

## 2. Psixoloqa ixtisas attestatının verilməsinə dair ümumi tələblər

2.1. Psixoloqa ixtisas attestatının verilməsi məqsədilə onun bu Qaydanın 3.11-ci bəndində göstərilən sahələrdə biliyə malik olub-olmaması Nazirlik tərəfindən müasir texnologiyalardan istifadə edilməklə test üsulu ilə və müsahibə vasitəsilə müəyyən edilir.

2.2. İxtisas attestatı almaq üçün şəxs Nazirliyin rəsmi internet səhifəsində müvafiq elektron xidmət bölməsi vasitəsilə elektron qaydada müraciət edir. Şəxsin ərizəsinə aşağıdakı sənədlər əlavə olunmalıdır:

2.2.1. şəxsiyyəti təsdiq edən sənədin surəti;

2.2.2. klinik (tibbi) psixologiya ixtisası üzrə magistr təhsili barədə dövlət sənədinin surəti;

2.2.3. psixologiya ixtisası üzrə ən azı 1 (bir) il iş təcrübəsini təsdiq edən sənəd.

2.3. İxtisas attestatının alınması üçün elektron qaydada müraciət edilərkən, bu Qaydanın 2.2.1-2.2.3-cü yarımbəndlərində göstərilən sənədlərin skan edilmiş surəti əlavə olunur.

2.4. Nazirlik təqdim edilmiş sənədlərə bu Qaydanın 2.5-ci bəndi nəzərə alınmaqla, 10 (on) iş günü müddətində baxır və namizədin qiymətləndirilməyə buraxılıb-buraxılmaması barədə qərar qəbul edir.

2.5. Bu Qaydanın 2.2-ci bəndində göstərilən sənədlər təqdim edilmədikdə və yaxud təqdim olunmuş sənədlərdə uyğunsuzluq və ya səhv aşkar edildikdə, Nazirlik bu barədə 3 (üç) iş günü müddətində elektron poçt ünvanı vasitəsilə ərizəçini məlumatlandırır. Ərizəçi 7 (yeddi) iş günü müddətində səhv və uyğunsuzluqların aradan qaldırılmasını, çatışmayan sənədlərin təqdim olunmasını təmin etməlidir. Sənədlər təqdim edilənədək bu Qaydanın 2.4-cü bəndində nəzərdə tutulmuş müddətin axımı dayandırılır.

2.6. Ərizəçi tərəfindən 7 (yeddi) iş günü müddətində səhv və uyğunsuzluqlar aradan qaldırılmadıqda, çatışmayan sənədlər təqdim edilmədikdə, namizədin testə buraxılmasından imtina olunması barədə qərar qəbul edilir və 3 (üç) iş günü müddətində elektron qaydada ərizəçiyə göndərilir.

2.7. Namizədin testə buraxılması haqqında qərar qəbul edildikdə, onun barəsində məlumat testə buraxılan namizədlərin siyahısına daxil edilir və Nazirliyin internet səhifəsində yerləşdirilməklə 5 (beş) iş günü müddətində namizədin elektron poçt ünvanına bu barədə məlumat göndərilir.

2.8. Bu Qaydanın 3-cü hissəsinin tələblərinə uyğun olaraq qiymətləndirmədən uğurla keçmiş namizədə 5 (beş) iş günü müddətində bu Qaydanın əlavəsində göstərilən formada ixtisas attestatı verilir.

2.9. İxtisas attestatında aşağıdakı məlumatlar göstərilir:

2.9.1. Nazirliyin tam adı;

2.9.2. ixtisas attestatının nömrəsi;

2.9.3. ixtisas attestatı verilən şəxsin soyadı, adı və atasının adı;

2.9.4. ixtisas attestatının verilməsi tarixi;

2.9.5. ixtisas attestatının qüvvədəolma müddəti.

2.10. İxtisas attestatı Azərbaycan Respublikasının Səhiyyə naziri tərəfindən imzalanır və Nazirliyin möhürü ilə təsdiq edilir.

2.11. İxtisas attestatının əsli 1 (bir) nüsxədən ibarət olmaqla psixoloqa şəxsən verilir, ixtisas attestatının verilməsini təsdiq edən

sənədlər isə Nazirlikdə qalır. İxtisas attestatı yararsız hala düşərsə və ya itirilərsə, psixoloqun müraciətinə əsasən Nazirlik tərəfindən bu Qaydanın 2.8-ci bəndində göstərilən müddətdə ona ixtisas attestatının dublikatı verilir.

2.12. İxtisas attestatının qüvvədəolma müddəti 5 (beş) ildir.

2.13. İxtisas attestatının verilməsi ödənişsiz həyata keçirilir.

## 3. İxtisas attestatının verilməsi üçün psixoloqun biliyinin qiymətləndirilməsi

3.1. Psixoloqun biliyinin qiymətləndirilməsi üçün test və müsahibədən ibarət olmaqla müsabiqə keçirilir.

3.2. Psixoloqun biliyinin qiymətləndirilməsi ilə bağlı testin keçirilməsi vaxtı və yeri barədə məlumat onun keçirilməsinə 10 (on) gün qalmış Nazirliyin internet səhifəsində yerləşdirilir və bu barədə məlumat, habelə testə buraxılış vərəqəsi və yaddaş kitabçası namizədin elektron poçt ünvanına göndərilir.

3.3. Test tapşırıqlarının yoxlanılması zamanı namizədə dair məlumatların konfidensiallığının təmin edilməsi məqsədilə hər bir namizədə rəqəmlə ifadə olunan şəxsi eyniləşdirmə kodu verilir.

3.4. Testə buraxılış vərəqəsində namizədin soyadı, adı, atasının adı qeyd olunur və test keçirilən yerin ünvanı, tarix, vaxt, auditoriyanın nömrəsi göstərilir.

3.5. Testə gələn namizəd buraxılış vərəqəsini və şəxsiyyəti təsdiq edən sənədi özü ilə gətirməlidir. Göstərilən sənədlərin biri olmadıqda, həmin şəxs testə buraxılmır.

3.6. Test zamanı namizəd aşağıdakı hərəkətlərə yol verməməlidir:

3.6.1. saxta və ya başqasına aid sənəd təqdim etmək, testə öz yerinə başqasını göndərmək və ya sərxoş vəziyyətdə gəlmək;

3.6.2. testin keçirilməsi zamanı mobil telefon və digər rabitə vasitələri, konspekt, məlumat kitabçası və digər yardımçı vasitələr gətirmək;

3.6.3. yandırıcı, partlayıcı, kəsici, deşici, atıcı və digər bu kimi əşyalarla testin keçirildiyi binaya girmək, özü ilə tütün məmulatı gətirmək;

3.6.4. test başlandığı andan icazəsiz yerini dəyişmək, gəzişmək, yerindən durmaq və testin gedişinə mane olmaq;

3.6.5. test başlandığı andan 1 (bir) saat müddət bitənədək və son 30 dəqiqə ərzində testin keçirildiyi zaldan çıxmaq;

3.6.6. başqasının nəticəsinə təsir göstərmək, o cümlədən başqasının cavab vərəqinə baxmaq və ya öz cavab vərəqinə başqasının baxmasına şərait yaratmaq, sualın cavabını soruşmaq və ya bildirmək;

3.6.7. nəzarətçiyə və digər şəxslərə tapşırıqların həllində kömək üçün müraciət etmək;

3.6.8. cavab vərəqini nəzarətçiyə təhvil vermədən testin keçirildiyi zalı tərk etmək.

3.7. Namizədin bu Qaydanın 3.6-cı bəndində göstərilən hərəkətlərə yol verməsi halları Nazirlik tərəfindən aşkar edildikdə, onun testinin nəticələri ləğv olunur. Bu qərardan inzibati qaydada və məhkəməyə şikayət verilə bilər.

3.8. Testin keçirilməsi zamanı tövsiyə olunmayan hərəkətlər, habelə testin keçirildiyi yerə gətirilməsi qadağan olunan əşyaların siyahısı yaddaş kitabçasına daxil edilir.

3.9. Testin keçirilməsini təmin etmək məqsədilə Nazirlik testin keçirilməsinə məsul şəxsi və nəzarətçiləri təyin edir. Nəzarətçilərin sayı hər auditoriya üzrə 2 (iki) nəfərdən az olmamalıdır.

3.10. Namizəd yaddaş kitabçasında qeyd olunan tələblərə riayət etmədikdə, testin keçirilməsinə məsul şəxs və nəzarətçi tərəfindən bu barədə akt tərtib edilir və həmin şəxs testdən kənarlaşdırılır. Qeyd olunan pozuntular test başa çatdıqdan sonra aşkar olunarsa, həmin şəxsin test nəticələri ləğv edilir.

3.11. Test tapşırıqları konfidensiallıq gözlənilməklə Nazirlik tərəfindən üç mürəkkəblik dərəcəsi üzrə tərtib edilir və tapşırıqlar kitabçasındakı saya proporsional olaraq hər bir dərəcədən olmaqla xüsusi proqram vasitəsilə seçilir. Hazırlanmış tapşırıqlar toplusunda tapşırıqların sayı test zamanı istifadə ediləcək tapşırıqların sayından azı 10 (on) dəfə çox olmalıdır. Tapşırıqlar toplusu hər il 10 (on) faizdən aşağı olmayaraq yenilənir.

3.12. Test tapşırıqları namizədin psixopatologiya, inkişaf psixologiyası, psixoterapiya sahələrində biliyinin qiymətləndirilməsi və aşağıdakıların müəyyən edilməsi məqsədilə tərtib edilir:

3.12.1. psixoloji testlər vasitəsilə psixi (zehni, emosional, davranış) və (və ya) interpersonal pozuntuların, psixoloji tələbatların və ya problemlərin müəyyənləşdirilməsi və qiymətləndirilməsi bacarığı;

3.12.2. psixi və ya fiziki sağlamlıqla bağlı olan problemlərdən əziyyət çəkən insanlara müxtəlif psixoloji yardım növlərinin, o

cümlədən psixoterapiya, ailə terapiyası və psixoloji reabilitasiya və psixoloji korreksiya yardımlarının göstərilməsi bacarığı;

3.12.3. psixoloji və psixi sağlamlıqla bağlı olan məsələlər üzrə tövsiyələrin (məsləhətlərin) verilməsi bacarığı.

3.13. Nazirlik test tapşırıqlarının düzgün cavablarının siyahısını tərtib edir və konfidensiallıq gözlənilməsi şərtilə onların xüsusi ayrılmış yerdə 1 (bir) nüsxədə saxlanılmasını təmin edir.

3.14. Test tapşırıqları müasir informasiya texnologiyaları və xüsusi optik cihazlar vasitəsilə oxunan və 40 (qırx) sualdan ibarət olan tapşırıqlar kitabçasında qeyd olunur.

3.15. Test tapşırıqları bilavasitə test başlamazdan əvvəl komissiya tərəfindən aşkar surətdə ümumi tapşırıqlar toplusundan seçilir və 2 (iki) müxtəlif variantda hazırlanır. Bunun üçün tapşırıqlar toplusu olan zərf testdə iştirak edən namizədlərdən ən azı 2 (iki) nəfərin iştirakı ilə açılır və kompüterə daxil edilir. Kompüter xüsusi proqrama uyğun ümumi tapşırıqlar toplusundan 2 (iki) müxtəlif variantda mürəkkəblik dərəcəsinə görə 15 (on beş) çətin, 15 (on beş) orta, 10 (on) asan olmaqla, ümumilikdə 40 (qırx) test tapşırığı seçir. Seçilmiş tapşırıqlar yerində, mətbəə üsulu ilə testdə iştirak edən namizədlərin sayına uyğun olaraq çoxaldılır və onlara paylanılması üçün testin keçirilməsində iştirak edən məsul şəxsə verilir.

3.16. Tapşırıqlar testin keçirilməsində iştirak edən məsul şəxsə verildikdən sonra o, nəzarətçi ilə birlikdə cavab kartları zərfinin möhürünü açır, şəxsi eyniləşdirmə kodu ilə şifrələnmiş cavab kartlarını test tapşırıqlarına uyğun ayırır, testdə iştirak edən namizədlərə paylayır və həmin kartların doldurulması qaydasını onlara izah edir.

3.17. Test 2 (iki) saat müddətində keçirilir.

3.18. Testin başlanma vaxtı tapşırıqlar kitabçası paylanıldığı andan hesablanır. Test bir neçə auditoriyada keçirildikdə, hər auditoriyada testin başlanma vaxtı həmin auditoriyada tapşırıqlar kitabçası paylanıldığı andan hesablanır.

3.19. Test tapşırıqları üzrə cavab kartında düzgün cavabın yerləşdiyi hərfli dairə qara və ya tünd göy rəngdə yazan diyircəkli qələmlə doldurulmalıdır. Korlanmış cavab kartı dəyişdirilmir. Bir suala aid olan bir neçə dairə qaralanarsa, həmin cavab etibarsız sayılır və ümumi nəticəyə hesablanmır. Cavab kartı onu doldurmuş namizəd tərəfindən imzalanır. Cavab kartında hər hansı bir qeydin aparılmasına yol verilmir, əks halda bu cür cavab kartı etibarsız hesab olunur.

3.20. Testin başa çatması barədə protokol tərtib edilir. Protokol nəzarətçilər və imtahan verən iki psixoloq tərəfindən imzalanır. Protokol və cavab kartları zərfə qoyulur, möhürlənir və Nazirliyə təqdim edilməsi üçün testin keçirilməsinə məsul şəxsə təhvil verilir.

3.21. Test tapşırıqları üzrə cavab kartları Nazirlikdə müasir informasiya texnologiyalarından istifadə edilməklə yoxlanılır. Qiymətləndirmənin nəticələri üzrə balların hesablanması avtomatlaşdırılmış qaydada həyata keçirilir.

3.22. Hər bir tapşırığa düzgün cavab bir balla qiymətləndirilir (cəmi 40 mümkün bal). Səhv cavablar və ya sualın cavabsız qoyulması sıfır bala bərabər tutulur.

3.23. Test tapşırıqları üzrə 25 (iyirmi beş) və ya daha çox bal toplamış şəxslər testdən keçmiş hesab olunurlar. Testdə iştirak etmiş namizədə onun müraciəti ilə testin nəticəsinə dair arayış verilir.

3.24. Testdən azı 25 (iyirmi beş) bal toplamış namizəd müsahibə mərhələsinə buraxılır. Müsahibə mərhələsində hər bir namizədə 20 (iyirmi) dəqiqə vaxt ayrılır.

3.25. Müsahibənin keçirilməsi üçün Nazirlik müsahibə komissiyası yaradır və onun tərkibini təsdiq edir.

3.26. Müsahibə mərhələsi aşağıdakı meyarlar əsasında maksimum 40 (qırx) balla qiymətləndirilir:

3.26.1. psixoloji yardım almaq üçün müraciət edən şəxsin yaş, cins və digər xüsusiyyətləri nəzərə alınmaqla, psixoloji yardımın növünü və formasını düzgün seçmək bacarığı;

3.26.2. psixoloji yardım almaq üçün müraciət etmiş şəxsləri dinləmə bacarığı;

3.26.3. psixoloji yardım almaq üçün müraciət etmiş şəxsin problemlərini qiymətləndirmə bacarığı;

3.26.4. psixoloji yardımın göstərilməsi metodunu və vasitələrini düzgün seçmək bacarığı;

3.26.5. ünsiyyət bacarığı.

3.27. Hər bir meyar 4 (dörd) ballıq şkala əsasında ölçülür.

3.28. Müsahibə mərhələsində toplanıla biləcək maksimum 40 (qırx) bal meyarlar üzrə aşağıdakı qaydada hesablanır:

3.28.1. bu Qaydanın 3.26.1-ci yarımbəndində qeyd olunan meyar üzrə toplanılan balların 3 (üç) misli;

3.28.2. bu Qaydanın 3.26.1-3.26.3-cü yarımbəndlərində qeyd olunan meyar üzrə toplanılan balların 2 (iki) misli;

3.28.3. bu Qaydanın 3.26.4-cü yarımbəndində qeyd olunan meyar üzrə toplanılan balların 1 (bir) misli.

3.29. Müsahibə mərhələsində azı 20 (iyirmi) bal toplamış namizədlər həmin mərhələdən keçmiş hesab edilirlər.

3.30. Testin və müsahibənin nəticələri onların keçirildiyi tarixdən 5 (beş) iş günü müddətində elan edilir, keçirildiyi gün ərzində Nazirliyin rəsmi internet səhifəsində yerləşdirilir və namizədlərin “Şəxsi kabinet”inə göndərilir.

3.31. Test və müsahibə mərhələsində bu Qaydanın 3.24-cü və 3.29-cu bəndlərində göstərilən minimal balları toplamış namizədlər qiymətləndirmədən keçmiş hesab olunurlar.

3.32. Testin və müsahibənin nəticəsindən narazı qalan namizəd nəticənin elan olunduğu vaxtdan 5 (beş) iş günü müddətində Nazirliyə şikayət vermək hüququna malikdir. Şikayətə aidiyyəti mütəxəssislərlə birlikdə namizədin iştirakı ilə 5 (beş) iş günü müddətində baxılır və ona əsaslandırılmış cavab verilir. Namizədin nəticələrinin düzgün hesablanmadığı aşkar edildikdə, bu Qaydaya uyğun olaraq yenidən hesablanma aparılır və namizədin nəticələri yenilənir. Namizəd qiymətləndirmə ilə razılaşmadıqda, inzibati qaydada və məhkəməyə şikayət edə bilər.

3.33. Nazirlik hər bir namizədin tapşırıqlar kitabçasının və cavab kartlarının 1 (bir) il müddətində saxlanılmasını təmin edir.

## 4. İxtisas attestatının qüvvəsinin dayandırılması və ya ləğv edilməsi

4.1. Psixoloq öz fəaliyyətini həyata keçirərkən Qanunun, həmin sahədə yaranan münasibətləri tənzimləyən digər normativ hüquqi aktların və bu Qaydanın tələblərinə riayət etməlidir.

4.2. Psixoloq Qanunun tələblərini və şərtlərini pozduğuna görə Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq inzibati məsuliyyətə cəlb olunduğu tarixdən 1 (bir) il müddətində təkrar qeyd edilən pozuntuya yol verdikdə, səhiyyə müəssisəsinin rəhbəri ixtisas attestatının qüvvəsinin dayandırılması barədə Nazirliyə müraciət edir. Müraciətə baxılarkən psixoloqun Qanunun tələblərini və şərtlərini yerinə yetirməməsi barədə kifayət qədər əsas olduqda, psixoloqun ixtisas attestatının qüvvəsi 6 (altı) ay müddətinə Nazirlik tərəfindən dayandırılır.

4.3. İxtisas attestatının qüvvəsinin dayandırılması Nazirlik tərəfindən qəbul edilmiş qərarla müəyyən olunur. Qərarda ixtisas attestatının qüvvəsinin dayandırılmasına əsas olan hallar və attestatın qüvvəsinin dayandırıldığı müddət göstərilir.

4.4. İxtisas attestatının qüvvəsinin dayandırılmasına səbəb olmuş hallar 6 (altı) ay müddətində aradan qaldırılmadıqda, Nazirlik ixtisas attestatının ləğv edilməsi barədə qərar qəbul edir.

4.5. İxtisas attestatı aşağıdakı hallarda ləğv edilir:

4.5.1. klinik (tibbi) psixoloq ixtisas attestatının ləğvi barədə ərizə təqdim etdikdə;

4.5.2. klinik (tibbi) psixoloq vəfat etdikdə;

4.5.3. klinik (tibbi) psixoloqun fəaliyyət qabiliyyətinin olmaması və ya itkin düşməsi barədə məhkəmənin qanuni qüvvəyə minmiş qərarı olduqda.

4.6. İxtisas attestatı Nazirliyin qərarı ilə ləğv edilir. Bu zaman psixoloq ixtisas attestatı almaq üçün attestat ləğv edildiyi tarixdən 6 (altı) ay keçdikdən sonra bu Qaydaya uyğun olaraq təkrar müraciət edə bilər.

4.7. İxtisas attestatının qüvvəsinin dayandırılması və ya onun ləğv edilməsi barədə qərarın surəti 3 (üç) iş günü müddətində barəsində qərar çıxarılmış psixoloqa və səhiyyə müəssisəsinə göndərilir, həmçinin Nazirliyin rəsmi internet səhifəsində yerləşdirilir.

4.8. Psixoloq ixtisas attestatının qüvvəsinin dayandırılması və ya onun ləğv edilməsi barədə qərarla razılaşmadıqda, inzibati qaydada və məhkəməyə şikayət edə bilər.

"Klinik (tibbi) psixoloqlara verilən ixtisas attestatının forması və onun verilməsi, qüvvədəolma müddətinin dayandırılması və ya ləğv edilməsi Qaydası"na

**əlavə**

**Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi**
**KLİNİK (TİBBİ) PSİXOLOQUN**

**İxtisas attestatı № _____**

______________________________________________
(soyadı, adı və atasının adı)

İxtisas attestatının verilməsi tarixi ______________________________

İxtisas attestatının qüvvədəolma müddəti ________________________

**Azərbaycan Respublikasının**
**Səhiyyə naziri** ____________________________ _____________
(soyadı, adı və atasının adı) (imza)

M.Y.

____________________